# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 23 (1423), 4 - 10 iyun 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Prezident İlham Əliyev UEFA-nın prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) prezidenti Aleksandr Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı İlham Əliyev Aleksandr Çeferin və UEFA Avropa İcraiyyə Komitəsinin üzvləri ilə əvvəlki görüşünü xatırlayaraq yenidən nümayəndə heyətinin Bakıya səfərindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.

Avropa Futbol Assosiasiyaları Birliyinin prezidenti Aleksandr Çeferin Bakıda UEFA Avropa Liqasının final oyununun keçirilməsi üçün yüksək səviyyədə hazırlıq işlərinin görüldüyünü qeyd etdi. O, Bakının çox gözəl şəhər olduğunu, müasir inkişafı və tarixi ənənələri özündə birləşdirdiyini vurğuladı, onların paytaxtımızda özlərini çox rahat hiss etdiklərini dedi. UEFA-nın Prezidenti Aleksandr Çeferin Avropa Futbol Assosiasiyaları Birliyinin Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini qeyd edərək yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.

## Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub




Mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilən UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub.

Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyununa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də baxıblar.

Azərbaycanın paytaxtında çoxdandır maraqla gözlənilən futbol yarışı uğurla baş tutdu.

Oyunu italiyalı referi Canluka Rokki idarə edib. Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət (VAR) sistemindən istifadə olunub. Bundan başqa, bu turnirdə ilk dəfə olaraq komandalar əlavə vaxt təyin olunacağı təqdirdə dördüncü əvəzetmədən istifadə etmək hüququ qazanıblar.

Final oyununun möhtəşəm açılış mərasimində ingiltərəli DJ, bəstəkar və remikser Conas Blu Bakı Olimpiya Stadionuna toplaşan azarkeşlərə unudulmaz anlar yaşatdı. O, möhtəşəm mərasimdə 150 yerli rəqqasla birlikdə səhnəyə çıxdı.

Şərq ilə Qərbin qovuşduğu Bakıda təşkil olunan bu möhtəşəm mərasimdə Conas Blunun bənzərsiz ifası azarkeşlərin coşqulu alqışları ilə qarşılandı.

*(ardı 2-ci səhifədə)*

## Avropa Gənclər Olimpiya Festivalına 50 gün adlı tədbir keçirildi




Mayın 31-də Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi və Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsinin dəstəyi ilə EYOF-a 50 gün adlı tədbir keçirilib. Tədbir cari ilin iyun ayında Bakıda təşkil olunacaq Avropa Gənclər Olimpiya Festivalına dəstək məqsədi ilə həyata keçirilən "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı təşəbbüsü çərçivəsində təşkil olunub. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, Gənclər və İdman nazirinin müavinləri İsmayıl İsmayılov və Fərhad Hacıyev, Təhsil nazirinin müavini Firudin Qurbanov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, adı çəkilən qurumun digər rəsmiləri, məktəb kollektivi və şagirdlər iştirak ediblər.

*(ardı 2-ci səhifədə)*

## *Gənclər və İdman Nazirliyində Rikardu Quarejma ilə görüş*

Mayın 31-də Gənclər və İdman Nazirliyində İstanbulun "Beşiktaş" klubunun və Portuqaliya milli komandasının futbolçusu Rikardu Quarejma ilə görüş keçirilib.

Görüşdə çıxış edən Gənclər və İdman naziri Azad Rəhimov UEFA Avropa Liqasının final oyununun Bakıda yüksək səviyyədə təşkil edildiyini xatırladaraq, bu tədbirin əsl futbol bayramına çevrildiyini bildirib. Azarkeşlərin və qonaqların öz ölkələrinə xoş təəssüratlarla qayıtdıqlarını deyən nazir əmin olduğunu bildirib ki, onlar dost kimi yenidən Bakıya gələcəklər.

*(ardı 2-ci səhifədə)*

## XV Avropa Gənclər Olimpiya Festivalına 47 gün qalır





## II Avropa Oyunlarına 17 gün qalır

## *Anons*


*Azərbaycan qılıncoynadanı Avropa çempionatında qızıl medal qazandı* Səh. 2

Azərbaycan nümayəndə heyəti Gənc Olimpiyaçıların Beynəlxalq Forumunda Səh. 3

*Əmək və əhalinin sosial müdafiəsi naziri paralimpiyaçılarla görüşüb* Səh. 5

"Uşaq və gənclərimizin sağlam, vətənpərvər ruhda böyüməsi üçün var gücümüzlə çalışırıq" Səh. 6

Gimnastlar Xorvatiyada mükafata layiq görüldülər Səh. 3

*Gənc güləşçilər Avropa çempionatında mübarizə aparırlar* Səh. 3

İyun ayı üçün yeni reytinq siyahısı açıqlanıb Səh. 5

*Başa çatmış futbol mövsümünün təəssüratları* Səh. 7

# Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub

## *Azərbaycan Prezidenti İlham Əliyev final oyununa baxıb*

*(əvvəli 1-ci səhifədə)*

Əsrarəngiz xüsusi effektlər "Odlar Yurdu" üzərində səmanı işıqlandırdığı zaman DJ Blu özünün ən böyük hitlərinin miksini ifa etdi. Bu, tamaşaçılara müsbət enerji verməklə final oyununda mübarizə aparacaq hər iki komandaya da ehtiramın ifadəsi oldu.

Mərasimin ən yadda qalan hissəsi Conas Blunun bənzərsiz ifasının sədaları altında "Çelsi" və "Arsenal" komandalarının nəhəng formalarının arenaya gətirilməsi oldu.

Açılış mərasimindən sonra turnirin kuboku arenaya gətirildi. Daha sonra "Arsenal" və "Çelsi" komandalarının futbolçuları meydana çıxdılar.

İki yüzdən çox ölkədə canlı yayımlanan final qarşılaşmasının birinci hissəsində bir neçə dəfə təhlükəli vəziyyət yaransa da, hesab açılmadı. İkinci hissəyə "Çelsi" daha fəal başladı. Bu fəallığın nəticəsində 49-cu dəqiqədə Oliviye Jiru öz komandasını 1:0 hesabı ilə önə keçirdi. Qarşılaşmanın 60-cı dəqiqəsində "Çelsi" hesabda üstünlüyünü artırdı. Budəfəki qolun müəllifi Pedro Rodrigez oldu. Beş dəqiqə sonra "Arsenal"ın qapısına penalti təyin edildi. Penaltini dəqiq yerinə yetirən Eden Azar hesabı 3:0-a çatdırdı. "Arsenal" hesab arasındakı fərqi 69-cu dəqiqədə Aleks İvobinin möhtəşəm qolu ilə azaltmağa müvəffəq olsa da, iki dəqiqə sonra Eden Azarın vurduğu qolla "Çelsi" fərqi üç topa çıxardı: 4:1.

Maraqlı idman mübarizəsi şəraitində keçən qarşılaşma elə bu hesabla da başa çatdı.

Bununla da "Çelsi" komandası UEFA Avropa Liqasının 2018-2019-cu illər mövsümünün qalibi oldu.

Matçda dubl edən Eden Hazard final qarşılaşmasının ən yaxşı futbolçusu seçilib.

"Çelsi"nin fransalı hücumçusu Oliviye Jiru isə vurduğu qol sayəsində UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün ən məhsuldar futbolçusu olub. O, cari mövsümdə bu turnirdə 11 dəfə fərqlənib.

Final matçından sonra qaliblərin təntənəli mükafatlandırılması mərasimi keçirildi.

Qalib komandaya kuboku UEFA prezidenti Aleksandr Çeferin təqdim etdi.

Bununla da "Çelsi" 2012-2013-cü il mövsümündən sonra ikinci dəfə UEFA Avropa Liqasının qalibi adını qazandı. "Arsenal" isə ikinci dəfə UEFA Avropa Liqasının finalında məğlub oldu.

Qeyd edək ki, bu oyunla peşəkar futbolda 851-ci dəfə meydana çıxan "Arsenal"ın çexiyalı qapıçısı Petr Çex final görüşündən sonra karyerasını başa vurub.

Daha bir maraqlı məqam ondan ibarətdir ki, final qarşılaşması ilə əlaqədar tamaşaçı tutumu 70 min yerə çatdırılan Bakı Olimpiya Stadionu bu baxımdan UEFA Avropa Liqasının tarixində 20 illik rekordu yeniləyib. Bakı Olimpiya Stadionu bu göstərici üzrə UEFA Avropa Liqasının final matçına ev sahibliyi edən stadionlar arasında ən çox tamaşaçı tutumuna malik arena olub. Belə ki, 1999-cu ildə "Parma" və "Marsel" komandaları Moskvanın 62 min tamaşaçı tutumuna malik "Lujniki" stadionunda üz-üzə gəliblər.

Xatırladaq ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi futbol üzrə UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyununun 2019-cu il mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edib. UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan paytaxtında silsilə tədbirlər təşkil olunub. Belə ki, UEFA Avropa Liqasının zəngin irsinin təbliği məqsədilə Bakıda ötən il dekabrın 22-dən bu il yanvarın 7-dək "UEFA Avropa Liqası Muzeyi" fəaliyyət göstərib.

Bu mötəbər futbol turnirinin kubok səyahətinə martın 9-da Cenevrədə start verilib. Martın 22-23-də Sevilya, martın 29-30-da Berlin, aprelin 5-6-da London, aprelin 12-də Milan, aprelin 20-də Moskva, mayın 10-da Parisdə olan kubok mayın 19-da Gəncədə, 21-də isə Cocuq Mərcanlıda nümayiş olunduqdan sonra Bakıya gətirilib.

UEFA Avropa Liqasının final qarşılaşması çərçivəsində keçirilən tədbirlərdən biri də martın 3-də "Bakı 2019: Ulduzlar Finalı" adlı qarşılaşma olub. Həmin oyunda məşhur futbolçular Yeju Dudek, Maykl Essien, Anderson Luis de Souza (Deku), Hamit Altıntop, Nihat Kahveci, Andrey Arşavin, Revaz Arveladze, eləcə də, yerli veteran futbolçulardan Nazim Süleymanov və UEFA Avropa Liqasının Bakıda keçirilən final oyununun səfiri Vəli Qasımovun iştirakı ilə "Bakı 2019: Ulduzlar Finalı"nda "Qərb Ulduzları" və "Şərq Ulduzları" komandaları qarşılaşıblar.

UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya Stadionunda keçirilməsi




ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycanın son illərdə bir neçə mötəbər beynəlxalq idman yarışına - I Avropa, IV İslam Həmrəyliyi Oyunlarına, Formula 1 yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə ev sahibliyi etməsi Azərbaycanın idman dövləti olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, bu gün ən mötəbər idman qurumları nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verirlər.

Belə ki, UEFA Avropa Liqasının final oyunu ilə yanaşı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyununun, bu il iyulun 20-28-də Avropa Gənclər Olimpiya Festivalının Bakıda keçirilməsi barədə qərarlar bunun göstəricisidir. İdmançılarımızın Olimpiada, dünya və Avropa, eyni zamanda, digər beynəlxalq idman tədbirlərində qazandıqları medalların sayının ilbəil artması dövlət səviyyəsində idman sahəsinə göstərilən diqqətin nəticəsidir. Təqdirəlayiq haldır ki, uşaqlar və gənclər arasında idmana böyük maraq var. Bütün bunlar digər sahələr kimi, Azərbaycan idmanının da inkişafının ən parlaq dövrünü yaşadığını nümayiş etdirir.

## *Avropa Gənclər Olimpiya Festivalına 50 gün adlı tədbir keçirildi*

*(əvvəli 1-ci səhifədə)*

Tədbir çərçivəsində İspaniya krallığını təmsil edən 20 saylı məktəb İspaniya mədəniyyəti və mətbəxi ilə qonaqları tanış edib. Şagirdlər ölkə mədəniyyətini təmsil edən səhnəciklər və ifalar



ilə çıxış edərərək, tədbiri idmançıların nümunəvi çıxışları ilə rəngləndirdilər.

Proqram Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun maliyyə dəstəyi, Milli Olimpiya Komitəsinin təşkilatçılığı, Bakı- 2019 Avropa Gənclər Olimpiya Festivalı Əməliyyat Komitəsi, həmçinin Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin köməyi ilə reallaşdırılır. Proqram çərçivəsində Bakı şəhərindən seçilmiş 49 məktəb Avropa Gənclər Olimpiya Festivalında iştirak edəcək bir Avropa ölkəsini təmsil edir. Seçilmiş məktəblər təmsil etdikləri ölkələrin tarixi, mədəniyyəti, incəsənəti və idmanını Azərbaycanda, Azərbaycanı isə qardaşlaşmış məktəblər və digər vasitələrlə Avropada təbliğ edirlər.

* * *

Müasir Olimpiya Hərəkatının yaranmasının 125 illik yubileyinə həsr olunan tədbir Bakı-2019 Əməliyyat Komitəsinin və Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) təşkilatçılığı, Təhsil Nazirliyinin dəstəyi ilə təşkil edilib. 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günündə keçirilən yarışa "Olimpiya mədəniyyəti və təhsil" proqramının iştirakçısı olan 500 məktəbli də qatılıb. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Təhsil nazirinin müavini Firudin Qurbanov, MOK-un baş katibinin müavini Azər Əliyev, Bakı-2019 Əməliyyat Komitəsinin korporativ direktoru Elçin Səfərov, Olimpiya çempionları, idman ictimaiyyətinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Gənclər və İdman naziri Azad Rəhimov yarışa hazırlığın plana uyğun getdiyini qeyd edərək deyib: "Bugünkü tədbirdə uşaqların iştirakı çox vacibdir. Çünki biz texniki və əməliyyat tədbirləri ilə yanaşı, uşaq və yeniyetmələr arasında idmanın təbliğini qarşımıza məqsəd qoymuşuq. Biz mümkün qədər çox uşağın idmana maraq göstərməsini və sağlam həyat tərzi sürməsini istəyirik".

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxışında müasir Olimpiya hərəkatının 125 illik yubileyinin Avropa Gənclər Olimpiya Festivalının başlamasına 50 gün qalması münasibətilə təşkil olunan bu tədbirlər eyni günə təsadüf etməsindən məmnunluğunu bildirib: "Dostluğu, qarşılıqlı hörməti, sülhü və mükəmməlliyi özündə ehtiva edən Olimpiya hərəkatı dərin məna və məzmuna malikdir. Məhz bu səbəbdən Bakıda keçiriləcək XV Avropa Gənclər Olimpiya Festivalı ölkəmiz üçün tarixi əhəmiyyət daşıyır".

Təhsil nazirinin müavini Firudin Qurbanov Avropa Gənclər Olimpiya Festivalı və onun irsi çərçivəsində həyata keçirilən "Olimpiya mədəniyyəti və təhsil" proqramının məktəblilər üçün əhəmiyyətindən söz açıb. O, bildirib ki, belə beynəlxalq proqramlar məktəblilərin hərtərəfli inkişafında, onların dünyagörüşünün formalaşmasında misilsiz rola malikdir.

Tədbirdə "Zirvələrə doğru" idman kampaniyasına start verilib. Kampaniya çərçivəsində 13-16 yaşlı yeniyetmələr basketbol, velosiped idmanı, atletika, tennis və üzgüçülük yarışlarında güclərini sınayacaqlar. Beş həftə ərzində federasiyaların hər biri bütün iştirakçılar üçün "açıq qapı" günləri elan edəcək.

Avropa Gənclər Olimpiya Festivalı Əməliyyat Komitəsinin korporativ direktoru Elçin Səfərov ən yaxşı nəticə göstərən uşaqların Bakı-2019-da iştirak etmək və festivalı yaxından izləmək imkanı qazanacaqlarını bildirib. O, idmanı sevən bütün uşaqların bu turnirə dəvət olunduğunu vurğulayıb. Qeyd edib ki, uşaqlar burada idmançılar, məşqçilərlə şəxsən tanış ola və onlardan çox vacib məsləhətlər ala biləcəklər.

Tədbirdə atletika, basketbol, tennis, üzgüçülük və velosiped idman növləri üzrə milli federasiyalar həmin növlər üzrə interaktiv təqdimatlar edib.

Sonra müasir Olimpiya hərəkatının və Beynəlxalq Olimpiya Komitəsinin təsis olunmasının 125 illik yubileyi münasibətilə Atletlər kəndində kütləvi qaçış yarışı təşkil edilib. Avropa Gənclər Olimpiya Festivalının layihəsi olan "Olimpiya mədəniyyəti və təhsil" proqramında iştirak edən və 49 təhsil müəssisəsini təmsil edən 500 məktəbli finiş xəttinə birinci çatmaq üçün yarışıb.

Turnirin sonunda iştirakçılar və qaliblər Milli Olimpiya Komitəsinin hədiyyələri və diplomları ilə təltif olunublar.

Tədbir çərçivəsində "Olimpiya mədəniyyəti və təhsil" proqramında iştirak edən məktəblilərin Atletlər kəndinə ekskursiyası təşkil edilib. Uşaqlar festival zamanı Atletlərin məskunlaşacağı, idmançıların yaşayış, əyləncə və idman zonaları ilə yaxından tanış olublar.

Avropa Gənclər Olimpiya Festivalı iyulun 21-27-də Bakıda keçiriləcək. Yarışlarda iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə gələcək. Atletlər gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

## Gənclər və İdman Nazirliyində Rikardu Quarejma ilə görüş

R.Quarejmanın Avropa çempionatının seçmə mərhələsi çərçivəsində 2007-ci il oktyabrın 13-də Bakıda keçirilən Azərbaycan-Portuqaliya qarşılaşması ilə əlaqədar ölkəmizdə olduğunu xatırladan nazir onun yenidən respublikamıza gəlməsindən məmnunluğunu bildirib.

Futbolçu ölkəmizə səfərindən xoş hisslər keçirdiyini, burada yüksək səviyyədə qarşılandığını vurğulayıb. R.Quarejma əvvəllər də Bakıda olduğunu, şəhərimizi çox bəyəndiyi üçün yenidən buraya gəzməyə gəldiyini bildirib. Bakıda UEFA Avropa Liqasının final matçını izlədiyini qeyd edən futbolçu qarşılaşmanın yüksək səviyyədə təşkil olunduğunu, maraqlı oyun izlədiyini deyib.

A.Rəhimov futbolun təbliğində xidmətlərinə və Azərbaycan ilə Portuqaliya arasında dostluğun möhkəmlənməsinə verdiyi töhfəyə görə R.Quarejmaya diplom təqdim edib. Görüşdən sonra tanınmış futbolçu azarkeşlərlə xatirə şəkilləri çəkdirib.

Qeyd edək ki, R.Quarejma 2009-2010-cu il mövsümündə İtaliyanın "İnter" klubunun heyətində UEFA Çempionlar Liqasının qalibi olub. O, 2016-cı ildə Portuqaliya millisi ilə Avropa çempionu adını qazanıb. Futbolçu "Beşiktaş"ın heyətində isə iki dəfə Türkiyə çempionatının qalibi olub.



## *Azərbaycan qılıncoynadanı Avropa çempionatında qızıl medal qazandı*

Sablya üzrə Azərbaycan milli komandasının üzvü Anna Başta Bolqarıstanın Plovdiv şəhərində keçirilən 23 yaşadək qılıncoynadanların Avropa çempionatında qızıl medal qazanıb.

Qrup mərhələsində keçirdiyi altı görüşdən beşini qalib başa vuran Anna Başta onaltıdabir finalda Polşa idmançısı Zuzanna Şesleri 15:6 hesabı ilə məğlub edib. Səkkizdəbir finalda ispan Elena Hernandez Munoza 15:8 hesabı ilə qalib gələn sablyaçımız dörddəbir finalda Macarıstan təmsilçisi Kern Biankadan 15:3 hesabı ilə üstün olub. A.Başta yarımfinalda belaruslu Polina Kaspiaroviç üzərində 15:10 hesablı qələbə qazanıb. Qılıncoynadanımız finalda İtaliya idmançısı Lusia Lukarinini məğlub etməklə 23 yaşadək qadın sablyaçılar arasında Avropa çempionu olub.

## Gimnastlar Xorvatiyada mükafata layiq görüldülər

Xorvatiyanın Osiyek şəhərində idman gimnastikası üzrə “Challenge” seriyasına aid Dünya kuboku yarışlarına yekun vurulub. Estafet Sloveniyanın Koper şəhərinə təhvil verilib.

Azərbaycan gimnastları bu yarışda da uğurlu çıxışları ilə fərqlənməyi bacarıblar. Təmsilçilərimiz Marina Nekrasova və Nikita Simonov qızıl medal qazanaraq,



“Bonifika” idman arenasında dövlət himnimizi iki dəfə səsləndirməyə nail olublar.

Millimizin hesabına ilk qızılı Marina yazdırıb. Dayaqlı tullanma ilə hərəkətlərinə görə 14.475 xal alan gimnastımız öz sevimli alətində bütün rəqiblərini üstələyib.

Nikita Simonovun halqalardakı çıxışı ona bu dəfə də birinciliyi qazandırıb. Gözləntiləri maksimum doğruldan Nikita çıxışının yekununda 14.600 xal alaraq fəxri kürsünün ilk pilləsində qərarlaşıb.

## Azərbaycan nümayəndə heyəti Gənc Olimpiyaçıların Beynəlxalq Forumunda

Rusiya Milli Olimpiya Komitəsinin və Beynəlxalq Olimpiya Komitəsinin Həmrəylik Fondunun dəstəyi ilə Moskvada Gənc Olimpiyaçıların Beynəlxalq Forumu keçirilib. Forumun məqsədi uşaq və yeniyetmələr arasında Olimpiya Hərəkatını təbliğ etmək, onlara Olimpiya mədəniyyəti və dəyərlərini aşılamaq və bu yöndə biliklərini genişləndirmək olub. Tədbirdə Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalına qatılacaq ölkələrdən idmançılar və rəsmilər iştirak ediblər. Azərbaycanı tədbirdə idmançılardan Nikita Sitov, Fəxriyyə Tağızadə, Raziyyə Əliyeva, Rüstəm Mürvətov və Bakı-2019-da iştirak edəcək Azərbaycan komandasının rəhbəri Həsənağa Rzayev təmsil ediblər. İnteraktiv formada keçirilən tədbir idmançılar arasında dostluq əlaqələrinin qurulmasına yönəldilib.



Forumda iştirak edənlər arasında Beynəlxalq Olimpiya Komitəsi, Dünya Antidopinq Agentliyinin rəsmiləri və məşhur olimpiyaçılar da olub.

# Rumıniyada 4 medal qazanıldı

Rumıniyanın Kluj şəhərində cüdo üzrə Avropa açıq kubokunda Azərbaycanın qadın cüdoçularından ibarət komandası uğurla çıxış edərək 1 qızıl, 3 bürünc medal qazanıb. Qızıl medalı komandamızın aktivinə 52 kiloqram çəki dərəcəsində mübarizə aparan Gültac Məmmədəliyeva yazdırıb. İdmançı Fransa, İspaniya, Kuba və Macarıstandan olan rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Leyla Əliyeva, Aişə Qurbanlı (hər ikisi 48 kq) və İçinkorlo Munxtsedev (57 kq) Avropa kubokunun bürünc medalına sahib çıxıb. Qeyd edək ki, Kluj turnirində 29 ölkədən 350 cüdoçu mübarizə aparıb.



## Antidopinq mövzusunda maarifləndirici seminar



Azərbaycan Milli Antidopinq Agentliyi, Milli Olimpiya Komitəsi və Azərbaycan Atletika Federasiyasının (AAF) birgə təşkilatçılığı ilə antidopinq mövzusunda maarifləndirici seminar keçirilib.

Tədbirdə dinləyici qismində atletika üzrə milli komandamızın üzvləri, məşqçilər və federasiya rəsmiləri iştirak ediblər.

Təqdimat şəklində keçirilən seminarda antidopinq qayda pozuntuları, dopinq təhlükələri, dopinq nəzarəti prosesi haqda idmançılara ətraflı məlumat verilib.

Seminarda idmançılara bildirilib ki, onlar istənilən yerdə, istənilən zaman, heç bir xəbərdarlıq olmadan dopinq testindən keçirilə bilərlər. İdmançılar antidopinq qaydalarına riayət etməli, qadağan edilmiş maddə və üsullardan istifadə olunmamasını təmin etməli, müalicəni antidopinq qaydalarına zidd olaraq aparılmadığına əmin olmalı, bunlla yanaşı məkan məlumatını təmin etməlidirlər.

İnteraktiv şəkildə keçirilən iclasda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

* * *

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) “Ətraf mühiti zibildən təmizləyək!” çağırışı ilə təmizlik aksiyası keçirib.

28 May - Respublika Gününə həsr edilən aksiya zamanı agentliyin əməkdaşları, dopinq nəzarətçiləri, peşəkar idmançılar və məşqçilər Bilgəh çimərliyində plastik, şüşə, taxta, kağız və digər tullantılar toplayıblar.

Aksiyaya Azərbaycanın karate, voleybol, qılıncoynatma, velosiped idmanı və atletika federasiyalarının nümayəndələri də qatılıblar.

Öz işində təmizlik və saflıq prinsiplərini rəhbər tutan AMADA bu cür aksiyaları mütəmadi olaraq keçirməyi planlaşdırır.

İspaniyanın Pontevedra şəhərində gənc güləşçilər arasında Avropa çempionatı keçirilir. İlk yarış günündə 55, 63, 77, 97 və 130 kq-da çıxış edən yunan-Roma güləşçiləri mübarizə aparıblar. Zaur Əliyev Avropa çempionatına iddialı start verib. Güləşçimiz ilk görüşdə Bolqarıstan idmançısına ilk hissə bitmədən qalib gəlib. Əliyev növbəti görüşü də vaxtından əvvəl qələbəylə başa vurub.

## Gənc güləşçilər Avropa çempionatında mübarizə aparırlar

Zaur 1/4 finalda Danimarka təmsilçisinə gücünü göstərərək adını yarımfinala yazdıran ilk güləşçimiz olub. Zaur Nuriyev də yarışa zəfərlə başlayıb. Təmsilçimiz portuqaliyalı rəqibini cəmi 36 saniyəyə məğlub edib. Ancaq Nuriyev 1/4 finalda gürcü həmkarına məğlub olub.

Nəsir Həsənov debütdə Ukraynalı güləşçiylə qarşılaşıb. Həmyerlimiz 3:0 önə keçsə də, üstünlüyü əldən verərək uduzub. Laçın Vəliyev yarışa inamlı start verib. Yığma üzvü ilk hissədə Finlandiya təmsilçisinə qalib gəlib. Laçın 1/8 finalda prinsipial qarşılaşmada erməni rəqibinə də heç bir şans tanımayaraq parlaq qələbə qazanıb. Ancaq Vəliyev 1/4 finalda Macarıstan idmançısına müqavimət göstərə bilməyib. Sərxan Məmmədov da ilk görüşdə ciddi problemlə üzləşməyib. O, Çexiyadan olan rəqibini vaxtından əvvəl məyus edib. Ancaq Məmmədov 1/4 finalda macar həmkarına məğlub olub.

Ayın 5-7-də xalça üzərinə qadın güləşçilərimiz çıxacaq. Yarışın son 3 günündə isə meydan sərbəst güləşçilərin ixtiyarına veriləcək.

Qeyd edək ki, qitə birinciliyində beynəlxalq dərəcəli hakim Tural Əliyev ədaləti qoruyur.

## Akrobatika üzrə ölkə birinciliyi keçiriləcək

İyunun 8-9-da Milli Gimnastika Arenasının köməkçi zalında akrobatika üzrə 26-cı Azərbaycan və Bakı birinciliyi, həmçinin idman gimnastikası üzrə 26-cı ölkə birinciliyi və paytaxt çempionatı təşkil olunacaq.




İki gün davam edəcək yarışa idman gimnastları start verəcəklər. İştirakçılar yarışlar ərzində böyüklər, gənclər, yeniyetmələr, uşaqlar, balacalar və kiçiklər yaş kateqoriyasında medallar uğrunda mübarizə aparacaqlar.

Akrobatlar isə yeniyetmələr, uşaqlar və balacalar yaş kateqoriyasında yer alaraq, qadın və kişi cütlükləri, qarışıq cütlüklər, qadın və kişi qrupları proqramında yarışacaqlar.

Gimnastikanın hər iki növü üzrə yarışlarda ümumilikdə, 100-ə yaxın idmançı Bakı Gimnastika Məktəbi, “Ocaq Sport”, “Neftçi” klublarını, Nizami rayonu idman məktəbini, Sumqayıt və Balakəni təmsil edəcək.

## Azərbaycan çempionları müəyyənləşdi

Azərbaycan Texniki Universitetinin İdman Sarayında qılıncoynatma üzrə Azərbaycan çempionatına start verilib.

Azərbaycan Qılıncoynatma Federasiyası (AQF), Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən yarışın ilk günündə kişi və qadın şpaqaçılar arasında qaliblər müəyyənləşib.

Kişilər arasında Kənan Əliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Xalid Əliyev ikinci olub. Barat Quliyev və Fərrux Səfərov isə bürünc medalla kifayətləniblər.

Qadınlar arasında Elmira Xudaverdiyeva Azərbaycan çempionu olub. Azərin İdriszadə fəxri kürünün ikinci pilləsində qərarlaşıb. Alfiyə Abdinova və Məryəm Sadıxova isə bürünc medal qazanıblar.

Qaliblər diplom və medallarla təltif olunublar. Bundan əlavə ilk 3 yerin sahiblərinə AQF tərəfindən pul mükafatları təqdim olunub.

## II Avropa Oyunları

## Minsk-2019-da 13 cüdoçumuz çıxış edəcək



Minskdə keçiriləcək ikinci Avropa Oyunlarında Azərbaycanı 13 cüdoçu təmsil edəcək.

Yarışda kişi cüdoçularımızdan Orxan Səfərov, Kəramət Hüseynov (hər ikisi 60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq), Uşangi Kokauri (100 kq-dan yuxarı) mübarizə aparacaqlar.

Qadınların yarışında isə Aişə Qurbanlı (48 kq), Gültac Məmmədəliyeva (52 kq), İçinxorloo Münxtsedev (57 kq) və İrina Kindzerska (78 kq-dan yuxarı) qüvvələrini sınayacaqlar.

## Rinq ustaları Özbəkistanda

Kişi boksçulardan ibarət Azərbaycan yığması Özbəkistanın Anqren şəhərində keçirilən təlim-məşq toplanışında iştirak edir.



Təlim-məşq toplanışının təşkil olunmasında əsas məqsəd Belarusun paytaxtı Minskdə baş tutacaq ikinci Avropa Oyunlarına hazırlığın sonuncu mərhələsini keçməkdir.

Komandamızın Anqren toplanışı 15 gün davam edəcək. Baş məşqçi Vaqif Şirinov, məşqçilər Nəriman Abdullayev və Etibar Abdullayevin rəhbərliyi altında keçən hazırlıq prosesində 11 dəri əlcək ustası iştirak edir.

Millimiz toplanışı Özbəkistan və Qazaxıstan boksçuları ilə birgə keçir.

Qeyd edək ki, ikinci Avropa Oyunları iyunun 21-dən 30-dək keçiriləcək.

## Belarus paytaxtında 5 velosipedçimiz yarışacaq

Bu ilin iyununda Minskdə keçiriləcək ikinci Avropa Oyunlarında Azərbaycanı beş velosipedçi təmsil edəcək.

Trek yarışlarında millimizin üzvü Sergey Omelçenko iştirak edəcək. Şose növündə isə Samir Cəbrayılov, Elçin Əsədov, Mikayıl Səfərli, Musa Mikayılzadə mübarizə aparacaqlar.

Qeyd edək ki, birinci Avropa Oyunları Bakıda keçirilib. Azərbaycan yığması oyunlarda 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanıb və medal sıralamasında ikinci yeri tutub.

## Azərbaycanlı hakim II Avropa Oyunlarına təyinat alıb

Çimərlik futbolu üzrə FİFA referisi İnqilab Məmmədov Minskdə keçiriləcək ikinci Avropa Oyunlarına təyinat alıb.

Minsk 2019 ikinci Avropa Oyunlarında digər idman növləri ilə yanaşı, çimərlik futbolu üzrə də qarşılaşmalar keçiriləcək.

Bizim müsahibə

# Xəlil Hüseynov - Gözlərə nur bəxş edən tanınmış həkim



***İnsan o zaman xoşbəxt ola bilər ki, öz peşəsini ürəkdən sevsin. O, dərk etsin ki, bu peşə xalqa lazımdır və onun əməyi xalqa fayda gətirir. Həkimlik sənəti qəhrəmanlıq, hünər deməkdir. Bu peşə insandan fədakarlıq, saf niyyət tələb edir. Hər kəs buna qadir ola bilməz. Bunun üçün həkimin fikri aydın, qəlbi təmiz olmalıdır.***

***Həkim soyuqqanlı, xoşxasiyyət və insanpərvər olmalıdır. O, xəstə üçün ata, sağalmaqda olan insan üçün mühafizəçi, sağlam şəxs üçün dost hesab edilməlidir. O, xəstənin sağalmağa olan ümidini hər an dəstəkləməlidir.***

***"Olimpiya dünyası" qəzetinin "Bizim müsahibə" rubrikasının budəfəki qonağı tibb aləmində böyük nüfuza malikdir. O, həm tibb sahəsində, həm də idmanda uğurları ilə fərqlənir.***

Müsahibimiz oftalmoloq-cərrah, tibb elmləri namizədi, Respublika Müalicəvi Diaqnostika Mərkəzinin (RMDM) oftalmologiya şöbəsinin rəhbəri, qolf üzrə həvəskarlardan ibarət yığma komandanın kapitanı Xəlil Hüseynovdur. Cərrah-oftalmoloq Xəlil Hüseynov 1969-cu ildə Bakı şəhərində anadan olub. 1994-cü ildə Azərbaycan Tibb Universitetini müvəffəqiyyətlə bitirən Xəlil Hüseynov bir sıra xarici ölkələrdə təhsilini davam etdirib. 2002-2003-cü illərdə ABŞ-ın Florida ştatının Mayami şəhərində yerləşən Bascom Palmer Eye Universitetində ixtisaslaşma və təkmilləşmə məqsədilə bir illik "fellowship cornea ve refraktive" cərrahiyyəsi üzrə təhsil alıb. Xəlil Hüseynov müxtəlif illərdə və müxtəlif ölkələrdə bir sıra təkmilləşmə kurslarında iştirak edib. 2004-2009-cu illərdə Bakıda CCR Qeyri-hökümət humanitar təşkilatlarının oftalmoloji şöbəsinin rəhbəri olub. 2007-2014-cü illərdə Bakıda BRİZL oftalmoloji klinikasında baş həkim işləyən Xəlil Hüseynov hazırda Respublika Müalicəvi Diaqnostika Mərkəzinin oftalmologiya şöbəsinin rəhbəridir.



Bu yaxınlarda öz işinin peşəkarı olan təcrübəli cərrah-oftalmoloqla həmsöhbət olduq. Müsahibimizlə bu dəfə klinikada deyil, "Dreamland Qolf Klub"da yarış zamanı görüşdük. Xəlil Hüseynov ona ünvanlanan suallarımızı səmimi cavablandırdı.

***- Maraqlıdır, həkimlik peşəsinə maraq sizdə haradan yaranıb?***

- Mənim babam həkim olub. Onu görməmişəm. Lakin bilirəm ki, müharibədə həlak olub. Atam həmişə babamdan ağızdolusu danışardı. Deyirdi ki, baban dövrünün ən yaxşı cərrahlarından sayılırdı. Görünür, babamın seçdiyi sənət mənim diqqətimi çəkib. Hələ kiçik yaşlarımdan məndə də həkim olmaq həvəsi yaranıb. İnsan həvəsinin ardınca getməlidir, əgər bu həvəs onu uğura aparırsa. Orta məktəbi bitirdikdən sonra Tibb Universitetinə daxil oldum. Beləliklə, pillə-pillə irəliləyərək uşaqlıq arzumu həyata keçirməyə səy göstərdim.

## "Həkim təkbaşına heç nə edə bilməz"

***- Ölkəmizdə oftalmologiya sahəsində yetərincə təcrübəli həkimlər çalışırlar. Lakin bu gün bu sahənin adı çəkiləndə ağıla ilk olaraq Xəlil Hüseynov gəlir. Bu qədər sevilməyinizin sirri nədədir?***

- Mən 5 yaşımdan həkim olmaq arzusu ilə böyümüşəm. Hər bir peşənin özünəməxsus incəlikləri var. Həkim peşəsi də bu cürdür. Fikrimcə, həkim heç vaxt sıradan biri olmamalıdır. Burada söhbət insanın sağlamlığından, onun müalicəsindən gedir. Həkim mütləq öz xarakteri, bacarığı, davranışı ilə sevilməli, cəmiyyətdə və pasiyentləri arasında nüfuz sahibi olmalıdır. Necə deyərlər, həkimlik insandan böyük məsuliyyət tələb edir. Görülən işdə məsuliyyət əsas şərtdir. Ümumiyyətlə, tək həkim yox, hər kəs öz işinə məsuliyyətlə yanaşmalıdır. Əgər işinə məsuliyyətsiz yanaşsan, sənin nə təcrübən, nə də hörmətin olacaq. Təbii ki, heç bir pasiyent də məsuliyyətsiz həkimə müraciət etməyəcək. İnsanı həyata qaytarmaq, onun xəstəliyini müalicə etmək tək bir həkimlə mümkün deyil. Həkim təkbaşına heç nə edə bilməz. Xəstəliyin müalicəsi və uğurlu əməliyyat kollektiv işin məhsuludur. Gərək həmin kollektiv təcrübəli, peşəkar və mehriban heyətdən formalaşsın. Bu gün əldə etdiyim uğurlarda mənimlə birlikdə çalışan kollektivin müstəsna rolu var. Hər uğurlu əməliyyat birgə fəaliyyətimizin nəticəsidir.

***- Bəs bu qədər sevginin qarşılığında pasiyentlərinizlə problemləriniz olubmu?***

- Sözsüz ki, olub. Həkimlik elə bir peşədir ki, hər pasiyentlə gərək onun başa düşəcəyi dildə münasibət qurasan. Məlumat üçün bildirim ki, göz xəstəliklərinin müxtəlif növləri var. Bunun üçün hər bir pasientə, hər xəstəliyə fərqli yanaşma tələb olunur. Sən əgər öz pasiyentinə sevgi və qayğı ilə yanaşmasan, öz işini sevərək yerinə yetirməsən ona şəfa verə bilməzsən. Həkim gərək ilk növbədə insanları sevsin. Məhz belə olduğu təqdirdə sənin gördüyün iş faydalı olacaq. Bütün bu nüanslar bir-biri ilə vəhdət təşkil edir.

***- Eşitmişik ki, tez-tez xeyriyyə məqsədi ilə görülən işlərdə, layihələrdə iştirak edirsiniz. Yəqin ki, özünüzə qarşı etibarı və sevgini bu yolla qazanmısınız?***

- İnsan gərək həmişə ehtiyacı olanlara yardım əlini uzatsın. Bu, hər birimizə aiddir. Müəllimim hər zaman mənə deyirdi ki, imkan daxilində insanlara dəstək olmağa çalış, onlara yaxşılıq elə. Həmin sözlər hələ də yadımdadır. Qeyd edim ki, elə bu məqsədlə Fond yaratmışıq. Xeyriyyə məqsədi ilə təmənnasız əməliyyatlar həyata keçiririk. Öz növbəmizdə çalışırıq ki, insanlara kömək əlimizi uzadaq. Həkim pasiyentinə pul qazanmaq məqsədilə yanaşmalı deyil. Çünki təkcə gəliri düşünməklə irəli getmək olmaz. Həkim qazancdan əvvəl pasiyentinin halına ürəkdən acımalı, ona kömək etməlidir. Bu sadaladıqlarım peşəyə olan sevgidən irəli gəlir. Mən öz peşəmi sevirəm. İşi sevməmək mənim aləmimdə qeyri-mümkündür. İşini sevməyən insan hansısa səviyyəyə gəlib çata bilməz.

***- Əməliyyatlardan söz düşmüşkən, bu günə qədər neçə əməliyyat həyata keçirmisiniz?***

- 19 ilə yaxındır ki, bu sahə ilə məşğul oluram. Bu günə qədər təxminən 40 mindən çox pasiyentin göz əməliyyatını etmişəm.

***- Bəs elə pasiyentiniz olubmu ki, onun gözünü əməliyyat edə bilməmisiniz?***

- Əlbəttə, elə xəstəliklər var ki, onun çarəsi bizim əlimizdə deyil. İnsanların hamısına kömək etmək qeyri-mümkündür. Müəyyən problemlərə, səbəblərə görə biz hər pasiyenti sağlamlığına qovuşdura bilmirik.

## "Yaşıl rəng insanı stressdən çıxarır"

***- Respublika Müalicəvi Diaqnostika Mərkəzində artıq gözün buynuz qişasının transplantasiyası da həyata keçirilir. Bu Azərbaycanın tibb sahəsində böyük uğurdur. İstərdik, bu barədə danışasınız.***

- Yanvar ayından başlayaraq gözün buynuz qişasının transplantasiyasını həyata keçiririk. Bu əməliyyat Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində və Respublika Müalicəvi Diaqnostika Mərkəzində həyata keçirilir. RMDM-də bu günə qədər bu istiqamətdə neçə-neçə uğurlu əməliyyatlar keçirilib. Qeyd edim ki, uzun müddət idi ki, ölkəmizdə bu əməliyatın keçirilməsinə icazə verilmirdi. Hazırda ölkəmizdə gözün buynuz qişası ilə əlaqədar 3 minə qədər xəstənin əməliyyata ehtiyacı var. Onlardan da bir qismi Respublika Müalicəvi Diaqnostika Mərkəzinə müraciət edib. Bu əməliyyatlar bir çox hallarda anesteziyasız aparılır və təxminən 40 dəqiqə davam edir.

***- Siz bu gün ölkəmizin təcrübəli cərrahı, həm də istedadlı qolfçusu sayılırsınız. Peşənizlə məşğuliyyətiniz bir-birini tamamlayırmı?***

- Xaricdə təhsil alarkən müəllimim mənə demişdi ki, əgər sən yaxşı cərrah olmaq istəyirsənsə, mütləq yaxşı qolfçu olmalısan. Qolf insandan dəqiqlik və hadisələrə düzgün nəzarət etməyi, özünü düzgün kökləməyi tələb edir. Qolf oynayan zaman fikrin başqa yerdə olmamalıdır. Bir sözlə, bütün fikirlərini topa yönəltməlisən. Həkimimin məsləhətinə əməl etdim və qolf oynamağı öyrəndim. Bu mənə çox kömək oldu. Hazırda bu iki məşğuliyyəti bir-biri ilə uyğunlaşdırıram.

## "Nə qədər məşq edirsənsə, təcrübən də bir o qədər artır"

***- Siz, həmçinin qolf üzrə yığma komandanın kapitanısınız. İstərdik ki, bir qədər nailiyyətləriniz barəsində məlumat verəsiniz.***

- Bu günə qədər qolf üzrə bir sıra turnirlərin qalibi olmuşam. Keçən il qolf üzrə "Mercedes Trophy" və "Azərbaycan Open" turnirlərinin qalibi adını qazanmışam. Bundan başqa bu ilin fevral ayında Dubayda keçirilən beynəlxalq yarışda iştirak etdim. Həmin turnirdə üçüncü yerə layiq görüldüm. Rusiya, Türkiyə, Gürcüstan, Birləşmiş Ərəb Əmirliklərində keçirilən yarışlarda mükafatçılar sırasında yer almışam. Qarşıda bizi Cənubi Afrikada və İrlandiyada təşkil olunacaq beynəlxalq turnirlər gözləyir. Əsas məqsəd bu yarışlarda uğurla təmsil olunmaqdır. Qolf elə idman növüdür ki, nə qədər məşq edirsənsə, təcrübən də bir o qədər artır. Demək olar ki, hər həftə "Dreamland Qolf Klub"da müxtəlif turnirlər təşkil olunur. Sözsüz ki, hər həftə qalib olmaq qeyri-mümkündür. Amma belə turnirlərin sayəsində təcrübəmiz artır, asudə vaxtımızı maraqlı keçirməyə çalışırıq.

***- Topa zərbə vurarkən özünüzü daxildə necə kökləyirsiniz?***

- Düzünü desəm, əvvəl çox çətinlik çəkirdim, həyəcanlanırdım. Lakin sonralar təcrübəm artıqca bu problemi aradan qaldırdım. Artıq 8 ildir ki, qolfla məşğul oluram. Demək olar ki, indi çox sərbəstəm. Əsas odur ki, sakit olub, özünü tam oyuna kökləyəsən.

***- Qolfda ən vacib amil nədir?***

- Özünü oyuna kökləmək. Əgər fikrini toplaya bilməsən, onda yarış zamanı çox böyük problemlərlə üzləşəcəksən. Bundan başqa, küləyin istiqamətini və gücünü müəyyən etmək lazımdır. Bu oyunda qalib gəlmək üçün hər şeyi dəqiq ölçübbiçməlisən.

***- Maraqlıdır, cərrahlıqla qolfu bir arada necə çatdıra bilirsiniz?***

- Mən işimi çox sevirəm. Lakin iş qrafikim həddindən artıq gərgindir. Qəbul günlərində demək olar ki, 100-120 pasiyenti qəbul edirəm. Əməliyyat zamanı isə gün ərzində 30-50 pasiyentin gözünü əməliyyat edirəm. Təbii ki, stress çox olur. Lakin mənim bir adətim var ki, işdən çıxanda hər şeyi unuduram. Yəni işdəki gərginliyi işdə qoyub gedirəm. Heç bir gərginliyi özümlə evə aparmıram. Bu isə insanı istər-istəməz rahatlaşdırır. Cümə axşamlarından başlayaraq bazar günlərinə kimi hər həftə müxtəlif qolf turnirləri olur. Təəssüf ki, qrafikim çox sıx olduğuna görə yalnız bazar günləri "Dreamland Qolf Klub"da qolf oynayıram. Stress atmaq üçün bura yeganə yerdir. Gördüyünüz kimi, burada hər yer yaşıllıqdan ibarətdir. Ümumiyyətlə yaşıl rəng insanı stresdən çıxarır.

***- Qolfdan başqa hansı idman növünə həvəsiniz var?***

- Futbola. Bir vaxtlar mən çox yaxşı futbol oynayırdım. Evdə olan zaman əsasən, televiziya vasitəsi ilə futbol və qolf yarışlarını izləyirəm.

***- Sizcə, nəyə görə qolf ölkəmizdə digər idman növləri ilə müqayisədə kütləvilik qazana bilmir?***

- Qolf aristokrat idman növüdür. Təəssüf ki, hər insan qolf oynamağı bacarmır. Bu idman növü həm fiziki cəhətdən çətindir, həm də çox bahalı idman növü sayılır. Bundan əlavə qolf ölkəmiz üçün yeni idman növüdür. Təəssüf hissi ilə bildirmək istəyirəm ki, bu gün ölkəmizdə qolfun inkişafı üçün təbliğat işləri zəif aparılır. Bundan əlavə gənclərimiz əsasən, güləş, cüdo, boks kimi idman növlərinə üstünlük verirlər. Lakin mən əminliklə deyə bilərəm ki, qolf öz imkanlarına və gözəlliyinə görə sadaladığım idman növlərindən heç də geri qalmır. Bu gün ölkəmizdə möhtəşəm Qolf Akademiyası fəaliyyət göstərir. Burada gənc qolfçular hazırlanır. Akademiyada məşq edən gənclər "Dreamland Qolf Klub"da hazırlıq keçirlər. Mən inanıram ki, qolf da digər idman növləri kimi ölkəmizdə populyarlıq qazanacaq. Sadəcə olaraq, bu idman növünün inkişafı üçün vaxt lazımdır. Onu da qeyd edim ki, bu gün "Dreamland Qolf Klub"un 170-ə yaxın üzvü var. Onarın 150-i xarici, 20-i isə azərbaycanlıdır.



***- Övladlarınızdan sizin yolunuzu davam etdirən varmı?***

- İki oğlum var. Böyük oğlum Orxan yolumu davam etdirmək niyyətindədir. O, bu il universiteti bitirəcək və Amerikaya yollanacaq. O, vaxtilə mən Amerikada təhsil aldığım Baskom Palmer Eye Universitetində göz həkimliyi təhsilinə yiyələnəcək. Balaca oğlumun isə demək olar ki, tibbə marağı yoxdur. O, Azərbaycan Diplomatik Akademiyasına (ADA) hazırlaşır.

***- Bildiyimizə görə övladlarınız da idmanla məşğul olurlar.***

- Bəli, oğlanlarımın hər ikisi futbolla məşğul olublar. Kiçik oğlum Emil "Vətən" futbol klubunda çıxış edib.

***- Gözünüz sağlamdırsa, diqqətinizi toplaya bilirsinizsə, deməli, ovu da sevirsiniz?***

- Düzdür. Sizinlə tamamilə razıyam. Lakin ova nadir hallarda gedirəm. Əsasən, balıq tutmağı sevirəm. Hər ilin sentyabr ayında balıq tutmaq üçün Həştərxana gedirik. Qeyd edim ki, tutduğumuz balıqları yemək üçün ovlamırıq. Biz buna sadəcə, məşğuliyyət kimi yanaşırıq. Balıqları tutduqdan sonra onları yenidən suya buraxırıq. Ova isə əsasən, qış aylarında gedirik. Yeri gəlmişkən, deyim ki, bu il İsmayıllıya qaban ovuna getmişdik. Ümumilikdə çox az hallarda istirahətə vaxt tapa bilirəm. Lakin düşünürəm ki, istirahətsiz mümkün deyil. Sağlam həyat tərzi insan üçün vacibdir.

***Azər Əlizadə***



## Əmək və əhalinin sosial müdafiəsi naziri paralimpiyaçılarla görüşüb

Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Sumqayıt Paralimpiya Kompleksində üzgüçülük, boccia, cüdo, pouerliftinq və güllə atıcılığı idman növü ilə məşğul olan paralimpiyaçılarla görüşüblər.

S.Babayev və İ.Rəhimov 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paralimpiyaçıları təbrik edib, onların fiziki və mənəvi-psixoloji hazırlıqları ilə maraqlanıblar.

Nazir və komitə rəhbəri iki həftə əvvəl Bakıda keçirilən paracüdo üzrə beynəlxalq Qran-Pri yarışında medal qazanan idmançılara təbriklərini çatdırıb, gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

AMPK prezidenti İ.Rəhimov nazir S.Babayevə Bakıda keçirilən Qran-Prinin medallarından ibarət suvenir dəsti hədiyyə edib.

* * *

İtaliyanın Görmə Məhdudiyyətli Şəxslərin Paralimpiya İdman Federasiyasının prezidenti Sandro Di Cirolamo Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimova təşəkkür məktubu göndərib.

Məktubda mayın 13-14-də Bakıda keçirilmiş paracüdo üzrə beynəlxalq Qran-Pri yarışının mühüm idman hadisələrindən olduğu vurğulanıb. Bakıda yüksək qonaqpərvərliyə və səmimi qarşılanmaya görə federasiyanın adından dərin təşəkkür ifadə olunaraq, idmançıların ölkəmizdən xoş təəssüratlarla ayrıldığı qeyd edilib.

Xatırladaq ki, Heydər Əliyev adına İdman Sarayında keçirilən Qran-Pri yarışında 35 ölkədən 214 cüdoçu 13 dəst medal uğrunda mübarizə aparıb. Qran-Pri "Tokio 2020" XVI Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandırıb. Azərbaycan millisi 3 qızıl, 4 gümüş və 4 bürünc medalla komanda hesabında ikinci yeri tutub.

## İyun ayı üçün yeni reytinq siyahısı açıqlanıb

Beynəlxalq Şahmat Federasiyası (FİDE) iyun ayı üçün reytinq siyahısını açıqlayıb.

Azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov (2774) 3 pillə geriləyərək 8-ci mövqedə qərarlaşıb. Teymur Rəcəbov (2759) isə əvvəlki kimi 12-ci pillədədir. Digər şahmatçımız Arkadi Naydiçin də mövqeyi dəyişməyib. O, 2681 xalla 58-cidir. 2654 xala malik olan Qədir Hüseynov isə 97-ci yerdədir.

Maqnus Karlsen (2875) yenə də reytinq siyahısına başçılıq edir. İkinci yerdə amerikalı Fabiano Karuana (2819), üçüncü pillədə isə çinli Din Lijen (2805) qərarlaşıblar.

Qadın şahmatçılarımızdan isə Günay Məmmədzadə (2427) 40-cı pillədədir. Qadın zəka ustaları arasında isə ilk üç pillədə çinli idmançılar Hou Yifan (2659), Vencun Cu (2592) və ukraynalı Mariya Muziçuk (2563) yer alıblar.



* * *

Ukraynanın Gənclər və İdman Nazirliyi və GUAM-ın birgə təşəbbüsü ilə Kiyevdə beynəlxalq şahmat yarışı keçirilib.

Səfirlər, diplomatlar, gənclər və şagirdlərin qatıldığı yarışda Azərbaycanı Kiyev şəhər orta məktəb şagirdi Əli Allahverdiyev təmsil edib.

Turnirin məqsədi həvəskar şahmatçıları bir araya gətirmək olub.

## Yeniyetmə atletlərin paytaxt birinciliyi başa çatıb

İyunun 1-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda 2002-2003-cü il təvəllüdlü yeniyetmələr arasında atletika üzrə Bakı birinciliyinə yekun vurulub.Yarışda 8 komandadan 100-dən çox atlet iştirak edib.

Çempionatın ikinci günündə oğlanlar arasında uzunluğa tullanmada Kəsgin Abbaszadə, hündürlüyə tullanmada isə Aydın Bədəlov qalib adını qazanıblar. Qızlar arasında uzunluğa tullanmada Sabrina Zralova, nizə atmada Könül Əliyeva birinci yerə layiq görülüblər.

Qaçış növləri üzrə oğlanların yarışında Teymur Salahzadə (200 m) və Vahid Kərimov (800 m) birinci yerdə qərarlaşıblar. Qızların yarışında isə Lamiyə Vəliyeva (200 m) və Günel Manafova (800 m) birinci olublar.

Yarışın qalibləri federasiya tərəfindən medal və diplomlarla təltif olunublar.

## "Dördlərin finalı"nın keçiriləcəyi yer iyunda müəyyənləşəcək

Avropa Basketbol Liqası 2019/2020-ci illər mövsümündə "Dördlərin finalı"nın keçiriləcəyi yeri iyunun sonunda elan edəcək.

"Dördlərin finalı"na ev sahibliyi etmək üçün Afina da iddialıdır. Lakin Avroliqa yarışları qəbul edən tərəfdən lazımi zəmanət, o cümlədən maliyyə zəmanəti almayıb.

Mətbuat xidmətində deyiblər: "Hazırda Avroliqa şəhərin seçilməsi məsələsi üzərində çalışır. İndi yalnız onu deyə bilərik ki, biz şəhərin adını basketbol mövsümü başa çatanadək - iyunun sonlarında elan edəcəyik.

Cari mövsümdə "Dördlərin finalı" İspaniyanın Vitoriya-Qasteys şəhərində keçirilib. Qalib Moskvanın MOİK komandası olub.

## Yelkənçilərimiz Avropa çempionatına hazırlaşırlar

Azərbaycan Yelkənli İdman Federasiyasının "Optimist" sinifi üzrə yelkənçilərdən ibarət komandası Fransada "Optimist" sinfi üzrə keçiriləcək Avropa çempionatında iştirak edəcək. Çempionata hazırlıq məqsədilə yelkənçilər İzmirdə məşqlərə start veriblər.

Təlim-məşq düşərgəsinə Azərbaycanı "Optimist" sinifi üzrə yelkənçilərdən Kristina Kərimova, Fidan Ağazadə, Səxavət Əzimov, Murad Hacızadə, Timur Sıkaçevski və baş məşqçi cəlb olunublar. Seyhun Yıldızın rəhbərliyi ilə məşqə qoşulan yelkənçilərimiz qayıqların hazırlanması, yelkənlərin qurulması prosesini uğurla baş çatdırıblar.

Hazırlıq məşqlərində Yunanıstan, Malta, Bolqarıstan və Türkiyədən yelkənçilər də iştirak edirlər. Məşqlərə beynəlxalq və dünya yelkəni üzrə məşqçi Vagelis Atzemian tərəfindən hazırlıq toplantısından sonra start verilib. Yelkənçilər xüsusi çətin şərtlər altında məşqlərə cəlb olunublar. Saatlarla davam edən məşqlərdə Azərbaycan Yelkənli İdman Federasiyasının üzvləri bacarıq və hazırlıqları ilə beynəlxalq məşqçilərin rəğbətini qazanmağa müvəffəq olublar. Yelkənçilər maraqlı bir yoxlamadan da keçiblər. İki nəfərdən biri tünd qara eynəklə yelkəni idarə etməli olub. Komanda yoldaşının müşayiəti ilə toplanış məntəqəsinə səhvlərə yol vermədən çatmaq məşq prosesində çətin və maraqlı anlar yaşadıb.

Yelkənçilərin peşəkarlığını və sayıqlığını artırmaq məqsədilə tətbiq edilən bu addım idmançıların mübarizəsini daha gücləndirib.

Qeyd edək ki, beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edən yelkənçilərimiz dəfələrlə ölkə xaricində təşkil olunan təlim-məşq düşərgələrində iştirak ediblər. Təlim-məşqlərdə iştirakın əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitlərində yarış təcrübələrinin daha da gücləndirilməsidir.



Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda xaricdən dəvət edilən iki baş məşqçi fəaliyyət göstərir. Məhz xaricdən dəvət edilən idman menecerləri, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə komandaların məşqləri keçirilir.

Aktiv bazası 2014-cü ildən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi maddi-texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində "Optimist" sinifi üzrə 7-14 yaş uşaqlar, "Laser" sinifi üzrə isə 14 yaşdan yuxarı yeniyetmələri bu idman növünə cəlb etməkdir.

## *Səbinə Əzimova dünya birinciliyində qüvvəsini sınayıb*



Ficinin paytaxtı Suvada gənclər arasında ağırlıqqaldırma üzrə dünya çempionatı keçirilir. 51 ölkədən 311 atletin (161 oğlan və 150 qız) iştirak etdiyi yarışda Azərbaycan yığma komandasının üzvləri də mübarizə aparırlar.

Təmsilçilərimizdən ilk olaraq Səbinə Əzimova yarışda qüvvəsini sınayıb. O, 55 kq çəki dərəcəsində çıxış edib.

Atletimiz ümumilikdə 177 kq (78 kq + 99 kq) nəticə ilə 8-ci yeri tutub.

## *Dünya kubokunda 100-dən çox idmançı mübarizə aparacaq*

İyunun 6-dan 10-dək Abşeron Olimpiya İdman Kompleksində mas-reslinq üzrə dünya kuboku yarışları keçiriləcək.

Turnirdə Azərbaycan, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Litva, Pakistan, Rusiya, Slovakiya, Türkmənistan, Özbəkistan, Ukrayna və Finlandiya idmançıları iştirak edəcəklər.

Yüzdən çox idmançının iştirak edəcəyi yarışın açılış mərasimi iyunun 8-də olacaq.

## *64 idmançı arasında 4-cü yer*

Triatlon üzrə Azərbaycan yığma komandasının üzvü Rostislav Pevtsov Hollandiyanın Veert şəhərində keçirilən Avropa çempionatında dördüncü yeri tutub.

R.Pevtsov 1500 metrlik su məsafəsini 16 dəqiqə 13 saniyəyə başa vurub. Ardınca 40 kilometrlik velodistansiyanı 48 dəqiqə 4 saniyəyə qət edib. Nəhayət, yarışların sonuncu mərhələsi - 10 kilometrlik qaçış zolağını idmançımız 30 dəqiqə 9 saniyəlik nəticə ilə başa vurub. Ümumi hesabda R.Pevtsov 1 saat 36 dəqiqə 3 saniyəlik göstərici ilə dördüncü yerdə qərarlaşıb.

Altmış dörd idmançının mübarizə apardığı turnirin qalibi britaniyalı Alister Braunli olub.

Avropa çempionatında çıxış edən yığmamızın digər üzvü Kseniya Levkovskaya isə finişə 23-cü çatıb.



## Şəhər birinciliyinə yekun vurulub



Dənizkənarı bulvarda Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr edilmiş stolüstü tennis üzrə 2007-ci il və daha kiçik təvəllüdlü oğlan və qızlar arasında şəhər birinciliyi keçirilib.

Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda qızlar arasında Arzu Aslanova (şəxsi), Aylin Əsgərova, Zeynəb Süleymanova (qoşa) və Fatimə Cəfərova (qoşa-qarışıq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Oğlanlar arasında keçirilən yarışda isə Hüseyn Eylazov (şəxsi), Toğrul Məmmədov, Hüseyn Eylazov (qoşa) və Hüseyn Eylazov (qoşa-qarışıq) birinci yerə layiq görülüblər.

Yarışın qalib və mükafatçıları şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərmanı, medal və hədiyyələri ilə təltif olunublar.

* * *

Türkiyənin Antalya şəhərində yeniyetmələr arasında karatenin WKC növü üzrə dünya birinciliyi keçirilib. 42 ölkədən 1000-ə yaxın idmançının iştirak etdiyi mötəbər yarışda milli komandanın tərkibində çıxış edən Sumqayıt karate məktəbinin yetirmələri Akif Həsənov (63 kq) və Ülviyyə Həsənova (57 kq) bütün rəqiblərinə qalib gələrək dünya birinciliyinin qalibi olublar. Onların komanda yoldaşı Fərid Bayramlı isə bürünc mükafata layiq görülüb. Qalib və mükafatçıları Baş İdarənin rəisi Elgün Hümbətov qəbul edərək onlarla yarış təəsuratlarını bölüşüb, bundan sonra daha yüksək nailiyyətlərə imza atmağı arzulayıb.

Sonda idmançılarla xatirə şəkili çəkdirilib.

Qarabağ idmanı

***Ölkədə idman və Olimpiya hərəkatının təbliğində özünəməxsus dəsti-xətti olan "Olimpiya dünyası" qəzeti öz səhifələrində insanların sağlam həyat tərzinin təbliğ olunması, uşaq və gənclərin fiziki və mənəvi inkişafı, bir sözlə idmanın kütləviliyinin təmin olunması istiqamətində fəal iştirak edir və bu sahəni daim diqqətdə saxlayır. Qəzetimizin "Qarabağ idmanı" rubrikasında erməni təcavüzü nəticəsində işğal altında olan Qarabağ və Qarabağətrafı rayonların idman həyatından mütəmadi yazılar dərc olunur. Rubrikamızın budəfəki qonağı Cəbrayıl Gənclər və İdman İdarəsinin rəisi Emil Məstəliyevdir.***

***Emil Məstəliyev qəzetimizə Cəbrayıl rayonunun idman həyatından, gənclər sahəsində görülən işlərdən və problemlərdən danışdı.***

# "Uşaq və gənclərimizin sağlam, vətənpərvər ruhda böyüməsi üçün var gücümüzlə çalışırıq"



***- Emil müəllim, Cəbrayılsız Cəbrayıl idmanının vəziyyəti necədir?***

- Əvvəlcə qeyd edim ki, Cəbrayıl qədim diyardır. Dağlar qoynunda yerləşən yurdumuzun yaranma tarixi 7-8-ci əsrlərə gedib çıxır. Cəbrayıl rayonu güclü kadr potensialı, yüksək intellektə malik ziyalıları, görkəmli alimləri ilə tanınır. Əməyə bağlılıq, halal zəhmət cəbrayıllıların həyat tərzi olmuşdur. Bu qədim diyar Sosialist Əməyi Qəhrəmanları Köçəri Babayev, Sərdar İmrəliyev, Sovet İttifaqı Qəhrəmanı, 19 yaşlı Cəmil Əhmədov, yazıçı Sabir Əhmədov, şair Baqif Bayatlı, filologiya elmləri doktoru Kamil Vəliyev və digər saysız-hesabsız ziyalıları ilə tanınır.

Cəbrayıl rayonu 1993-cü ilin avqustun 25-də işğal edilib. O vaxtdan indiyə Cəbrayıl da, idmanı da köçkün həyatı yaşayır. İnsanlarımız ilk illərdə respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, çadır düşərgələrində, fin evlərində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdılar. Ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin göstərişi ilə çadırlar, fin evləri ləğv olundu və məcburi köçkünləri kompakt yerləşdirmək üçün Beyləqan rayonunda 11 qəsəbə salındı. Bundan sonra şəraitimiz xeyli yaxşılaşdı və təhsil, idman və s. bu kimi problemlərə vaxt ayıra bildik. O vaxta kimi çox əziyyət çəkdik. Təbii ki, torpaqlarımız işğal olunsa da, həyat davam edir. Uşaq və gənclərimizin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi, zərərli vərdişlərdən uzaq olması, vətənpərvər ruhda böyüməsi üçün var gücümüzlə çalışırıq.

Biləsuvarda yerləşən məcburi köçkün qəsəbələrində təxminən 20 minə yaxın cəbrayıllı yaşayır. Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov onların hər birinin problemləri ilə yaxından maraqlanır və yerində həll etməyə çalışır. Biz onun dəstəyini idman və gənclər sahəsində də görürük. Kamal müəllim daim bilik və idman yarışında uğur qazanan idmançılara görüşür, onları mükafatlandırır. Bu gənclərimizin gələcək uğurlarında stimul rolunu oynayır.

## "Lələtəpə" və "Xudafərin" komandası yarışlarda uğurla iştirak edir

***- Uşaq və gənclərin fiziki və mənəvi inkişafı istiqamətində hansı işlər görülür?***

- Cəbrayıl rayon Gənclər və İdman İdarəsi gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların zərərli vərdişlərdən uzaqlaşaraq idmana cəlb olunması, savadlı, bilikli böyüməsi üçün müvafiq və ardıcıl tədbirlər həyata keçirir. İşimizi Azərbaycan Gənclər və İdman Nazirliyinin təqvim planına uyğun olaraq qururuq. Qeyd edim ki, uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların kompüter biliklərinə yiyələnməsi üçün 3, 4, 6, 8, 10 və 11 saylı qəsəbələrdə kompüter mərkəzləri yaradılmışdır. 11 qəsəbənin hər birində fəaliyyət göstərən ümumtəhsil məktəblərində qapalı idman zalı və stadionlar şagirdlərin ixtiyarına verilib. Bununla bərabər, qəsəbələrdə həvəskar məşqçilər tərəfindən yaradılmış karate, kikboksinq, sərbəst güləş, yüngül atletika, futbol, voleybol, basketbol üzrə bölmələr fəaliyyət göstərir.

Cəbrayılın "Lələtəpə" komandası artıq 4 ildir ki, "Xəmsə" intellektual oyunlarının finalında yarışır. İdarəmiz tərəfindən bədən tərbiyəsi və idman sahəsində mütəmadi olaraq müxtəlif idman növləri üzrə yarışlar, rayon birincilikləri keçirilir, qaliblər mükafatlandırılır. Rayonun uşaq və yeniyetmə idmançıları atletika, voleybol, poliatlon, futbol, mini-futbol, şahmat, dama yarışlarında fəal iştirak edirlər. "Şahin" hərbi- idman oyunları idarəmiz tərəfindən yüksək səviyyədə təşkil edilir.

***- Gənclərlə iş, eləcə də, vətənpərvərlik tərbiyəsi ilə bağlı fikirlərinizi bilmək istərdik.***

- Cəbrayıl rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə hər il gənclərlə "Cümhuriyyətimiz əbədidir", "Azərbaycançılıq məfkurəsi", "Şəhidlər unudulmur", "Qan yaddaşımız", "Gəncliyimiz gələcəyimizdir, "Üç rəngli bayrağım" və s. mövzularda dəyirma masa təşkil edir. Bu tipli tədbirlərdə xeyli sayda gənc iştirak edir. Yeniyetmə və gənclərin hərbi xidmətə həvəsləndirilməsi və ordu sıralarına hazırlanması məqsədi ilə keçirilmiş görüşə rayon ağsaqqalları, Qarabağ müharibəsi iştirakçıları dəvət edilirlər. Təmsilçilərimiz "Hünər" manhı müsabiqəsində fəal iştirak edərək, mükafatlayıq yerləri tuturlar. İntellektual və kompüter oyunları üzrə gənclər arasında rayon çempionatı, eləcə də, rəssamlıq, musiqi, rəqs üzrə gənc istedadlar müsabiqəsi təşkil edilir.

Bizim rayonun camaatı sadə, zəhmətkeş, təvazökar insanlardır. Bir-birinə hörmət etməyi, xətir-hörmət saxlamağı bacarırlar. Bu yurdun uşaq və gəncləri də ata-babalarından miras qalan dəyərləri düzgün qiymətləndirməyi bacarırlar. Yeniyetmə və gənclərimiz vətənə çox bağlıdırlar.

***- İdman növləri üzrə bölmələrdə məşqlər necə aparılır?***

- İdman növləri üzrə məşqlər birbaşa rayonun xidmət ərazisi olan qəsəbələrdə aparılır. Məsələn, sərbəst güləş üzrə məşqlər III qəsəbədə keçirilir və məşqlərdə 80 idmançı iştirak edir. Yüngül atletika idman növü üzrə məşqlər 11 qəsəbədə keçirilir və məşqlərdə təxmini olaraq 120 idmançı iştirak edir. Futbol, voleybol, basketbol idman növü üzrə məşqlər də 11 qəsəbəni əhatə edir. 180 idmançı adıçəkilən idman növlərinin sirlərinə yiyələnirlər. 30-dək idmançı karate üzrə -IV-VII-IX saylı qəsəbələrdə məşğul olurlar. Uşaq və gənclərin vaxtını səmərəli keçirmələri üçün futbol, voleybol, basketbol meydançaları yaradılmış, tennis və bilyard avadanlıqları quraşdırılmışdır. Gələcəkdə qəsəbələrarası futbol, voleybol və bir sıra idman növləri üzrə yarışların təşkil edilməsi üçün 7-8, 10-11 saylı qəsəbələrin arasında futbol və voleybol meydançalarının tikilməsi nəzərdə tutulur. Qeyd edim ki, "Xudafərin" futbol klubumuz yarışlarda uğurla iştirak edir. Klubumuz ötən il "Qarabağ" komandasına qalib gəlib.



## Cəbrayılda şahmatı çox sevirdilər

***- Bildiyimizə görə, Cəbrayıl rayonunun güclü şahmat məktəbi vardır...***

- Bəli, Cəbrayılın güclü şahmat məktəbi vardır. Rayon Şahmat Məktəbi 1982-ci ildən fəaliyyət göstərir. Məktəb fəaliyyətə başladıqdan sonra rayonda şahmata maraq çox artıb. Məktəbdə hazırda 52 qrup fəaliyyət göstərir. Burada 48 məşqçi şagirdlərə (542 nəfər) "zəka" oyununun sirlərini öyrədir. Hər il ənənəvi olaraq may ayının 4-dən 10-na qədər ümumilli liderin anım günü münasibəti ilə rayon məktəbinin açıq birinciliyi keçirilir. Məktəbimizin məşqçi-müəllimi Sahib Nəcəfov hər il şahmat kompozisiyalarının tərtib olmasında fəal iştirak edir və mükafatalayiq yerlər tutur.

***- Cəbrayıl əsilli tanınmış elm, incəsənət adamları, ziyalılar kifayət qədərdir. Bəs idmançılar necə?***

- Futbolçu Araz Abdullayev, karate üzrə dünya çempionu Namiq Məmmədov, K-1 döyüşləri üzrə dünya çempionu Musa İsayev bizim rayonun yetirmələridir. Gənclərdən Əlif Hüseynov stend atıcılığı üzrə yarışlarda uğurla çıxış edir, IV İslam Həmrəyliyi Oyunlarının iştirakçısıdır.

***- Cocuq Mərcanlıda hansı işlər görülür?***

- Araz çayının yaxınlığında yerləşən Cocuq Mərcanlı kəndi Cəbrayılın işğaldan azad olunmuş yeganə kəndidir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə burada gözəl və abad kənd salınıb, məktəb, poçt, bağça və digər sosial-məişət obyektləri inşa edilib. Bir sözlə, Böyük Qayıdışın ilk qaranquşu olan Cocuq Mərcanlı kəndi yenidən öz firavan həyatına qovuşub.

AFFA-nın təşkilatçılığı və UEFA-nın maliyyə dəstəyi ilə kənddə böyük stadion tikilib. Bu ilin aprelində AFFA-nın və Cəbrayıl rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Cocuq Mərcanlı kəndində "Açıq Əyləncəli Futbol Məktəbləri" layihəsi çərçivəsində növbəti tədbir keçirildi. Tədbirdə AFFA-nin birinci vitse-prezidenti, Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev və başqaları iştirak edirdilər. 7-12 yaşlı oğlan və qızların iştirakı üçün nəzərdə tutulan layihənin əsas məqsədi uşaq futbolunu inkişaf etdirmək, uşaqların asudə vaxtlarını səmərəli təşkil etmək, onlarda futbola və digər idman növlərinə maraq yaratmaq, sağlam həyat tərzini təbliğ etməkdir.

***- Cocuq Mərcanlıya ilk gedişinizdə hansı hissləri keçirdiniz?***

- İlk dəfə kəndə gedəndə çox kövrəldim. Qonşu Mehdili kəndindən o tərəfdə mənim kəndim- Böyük Mərcanlı yerləşir. Doğma kəndimə əlim çatmadığı, ünüm yetmədiyi üçün özümü gücsüz hiss edirdim. Nəinki Cəbrayıl caamatı, bütün işğal altında olan rayonların sakinləri inanırlar ki, Ali Baş Komandan, müdrik siyasətçi İlham Əliyevin rəhbərliyi altında biz o torpaqlara qayıdacağıq. Bir zabit kimi hər an vətənimi müdafiə etməyə hazıram.

***- Qarşıda hansı planlarınız vardır?***

- AFFA bizə çox köməklik göstərir. Fikrimiz var ki, 4 saylı qəsəbədə böyük stadion inşa edək. Bundan başqa, təqvim planından irəli gələn müəyyən tədbirləri də həyata keçirməyi planlaşdırırıq.

"Olimpiya dünyası" qəzetinin kollektivinə çətin və məsuliyyətli işində uğurlar arzulayıram.

***Səadət Hakıyeva***



Xəbərlər

## AMPK-nın prezidenti Yaponiyanın ölkəmizdəki səfiri ilə görüşüb

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori ilə görüşüb.

Görüşdə İ.Rəhimov Azərbaycanda Paralimpiya hərəkatı və sürətli inkişafı, idmançılarımızın beynəlxalq yarışlardakı uğurları, bu hərəkata dövlət qayğısı, uşaq Paralimpiya hərəkatı və idmançıların reabilitasiyası, onların məişət şəraitinin yaxşılaşdırılması və cəmiyyətə inteqrasiyası sahəsində görülən işlər barədə geniş məlumat verib.

Qeyd edib ki, hazırda komitənin nəzdində 16 idman növü mövcuddur. Bunlardan 14-ü yay, 2-si isə qış idman növüdür. İ.Rəhimov növbəti Yay Paralimpiya Oyunlarının Yaponiyada keçiriləcəyini xatırladaraq AMPK-nın bu mötəbər turnirə ciddi hazırlaşdığını bildirib.

AMPK prezidenti Yaponiyanın Azərbaycandakı səfirliyi və bu ölkənin Paralimpiya Komitəsi ilə birgə əməkdaşlığın qurulmasının hər iki tərəf üçün önəmli olacağını vurğulayıb.

Səfir T.Katori komitə nümayəndələri ilə görüşdən məmnun olduğunu qeyd edib. O, nitqində Yaponiya səfirliyinin dəstəyi ilə ölkəmizdə idman sahəsində bir sıra layihələrin həyata keçirildiyini bildirib. Belə ki, Gəncədə cüdo idman zalının Yaponiya səfirliyinin vəsaiti ilə təmir edildiyi və hər il orada "Səfir kuboku" yarışının keçirildiyi qeyd olunub. Səfir ölkəsinin AMPK ilə əməkdaşlıqda maraqlı olduğunu bildirərək, birgə layihələrin həyata keçiriləcəyinə ümid etdiyini deyib.

Sonda birgə əməkdaşlıq barədə məsələlər geniş müzakirə olunub.

## Azərbaycanlı qrossmeyster "Çikaqo Open" turnirinin qalibidir

ABŞ-da keçirilən şahmat üzrə "Çikaqo Open" turnirinə yekun vurulub.



Azərbaycan qrossmeysteri Vasif Durarbəyli 9 oyundan 7 xal toplayaraq yarışın qalibi olub.

Amerikalı şahmatçılar Sionq Cefferi və Svierc Dariusz 6,5 xalla ikinci və üçüncü pillələrdə qərarlaşıblar.

## Stolüstü tennis üzrə yeni "Olimpiya ümidləri"

2009-cu il və daha kiçik yaşlı idmançılar arasında stolüstü tennis üzrə "Olimpiya ümidləri" respublika turniri keçirilib.



Turnirdə 94 idmançı birincilik uğrunda mübarizə aparıb.

Qızlar arasında müxtəlif yaş qruplarında Zəhra Süleymanova, Xədicə Eylazova, Yağmur Məmmədli və Xədicə Babazadə birinci yeri tutublar. Oğlanların mübarizəsində isə Vaqif Ələkbərov, Uğur Nəzərli və Onur Quluzadə qızıl medal qazanıblar.

Futbol

# Başa çatmış futbol mövsümünün təəssüratları



*Mobil İSMAYILOV*

*(əvvəli ötən sayımızda)*

## "Komanda mövsüm ərzində on iki dəfə məğlub olursa..."

"Barselona"nın çempion olduğu İspaniya La Liqası ilə bağlı fikirlərimi "Real" komandasından başlamaq istəyirəm. Son illəri götürsək, ilk dəfə olaraq "Real" əvvəlcədən çempionluq yarışmasından kənarda qaldı. Söhbət La Liqanın qalibi olub-olmaması uğrunda mübarizədən getmir. İlk dəfə olaraq həvəssiz, inamsız "Real" gördük. Mövsümə uğursuz başlaması qalsın bir yana. Birinci dövrənin ortalarında artıq hiss olunurdu ki, kral klubu çempionluq yarışmasında qətiyyətli təsir bağışlamır. "Barselona" ilə xal fərqi isə getdikcə artırdı. Məşqçi dəyişiklikləri də fayda vermədi. Nəticədə də komanda mövsümün axırına qədər etinasızlıq zolağından çıxa bilmədi.

Heyət cəmi bir neçə ay bundan qabaq Çempionlar Liqasını qazanmış heyət olsa da, göstərilən oyunlar əvvəlki oyunlar deyildi. Oyun səviyyəsinin aşağı düşməsini təkcə Ronaldonun gedişi ilə də bağlamaq olmazdı. Əlbəttə, portuqaliyalı ulduzun getməsinin istər-istəməz komandanın oyununa, nəticələrinə təsir etməsi əvvəlcədən ehtimal olunurdu. Amma yaranmış vəziyyətin başqa səbəbləri də vardı. Ümumiyyətlə, ilk turlardan bəlli oldu ki, futbolçuların yeni mövsümə hazırlıq səviyyəsi qənaətbəxş deyil. Komanda hər dəfə növbəti oyuna çətinliklə köklənirdi. Xətlər arasında əlaqə sanki pozulmuş kimi görünürdü. Həmişə peşəkarlığı ilə seçilən Kurtua kimi təcrübəli qapıçı tez-tez səhvlərə yol verirdi. İdeal formasından uzaq olan Marselo elə də nəzərə çarpmırdı. Varan, Kross əvvəllər olduğu kimi əzmkar deyildilər. Kazemiro çoxsaylı qayda pozuntularına yol verməsi və xəbərdarlıqlar alması ilə yadda qaldı. İstəkli təsir bağışlamayan Modriçin əksər hallarda oyunu alınmırdı. Halbuki cəmi bir neçə ay əvvəl keçirilmiş dünya çempionatında hamı Modriçdən danışırdı. Asensio və Lukas sanki otturaq oyunçulara çevrilmişdilər. Qaret Beyl əslində bütün mövsümboyu aşağı səviyyədə çıxış etdi. Daha çox ehtiyatda saxlanılan İsko oyun praktikasından əziyyət çəkməyə başladı. "Real"ın gələcəyi hesab olunan ümidverici gənclər - Alvaro Odriosola, Dani Sebalos, Serxio Reqilon, Valverde, Dias isə elə də diqqəti cəlb etmədilər. Yalnız Ramos, Junior və Benzema özlərini yaxşı tərəfdən göstərə bildilər.

Əgər "Real" kimi komanda mövsüm ərzində on iki dəfə (!) məğlub olursa, belə olan halda oyunçuların ətraflı surətdə qiymətləndirilməsinə də ehtiyac qalmır. Kral klubunda yaranmış vəziyyət məşqçi amili ilə də bağlı deyildi. Həmişə "Real"ın vurğunu olmuş Solari imkanlarından aşağı səviyyədə çıxış edən komandanı yenidən əvvəlki vəziyyətinə qaytarmaq üçün çox çalışdı. Onun səy göstərməsini hiss etmək heç də çətin deyildi. Amma alınmırdı ki, alınmırdı... "Tox" komandanı dərhal yerindən qaldırmaq ona müyəssər olmadı... Solari ilə əlaqədar bir məqamı yada salmaq istəyirəm. "Real"ın braziliyalı Ronaldonu transfer edərkən "İnter" klubuna 10 milyon avro borcu qalmışdı. Bu borcun həyətdəki futbolçunun biri ilə ödənilməsi razılaşdırıldı. "İnter" Solarinin üzərində dayandı.

Lakin Argentina yığma komandasının da üzvü olan Solari hər dəfə təkidlə bildirirdi ki, kral klubu onun üçün çox doğmadır, heyətə də alışıb, ona görə də bu komandada qalmaq istəyir. Nəhayət, kral klubunun israrlı təklifindən sonra Solari "İnter"lə danışıqlar aparmağa məcbur oldu. Amma şəxsi müqavilənin imzalanması məsələsində razılıq əldə edilmədiyinə görə keçid prosesi uzanmağa başladı. Bu minvalla argentinalı yarımmüdafiəçi Santyaqo Solari yalnız özünün göstərdiyi yüksək inadkarlıq və prinsipiallıq sayəsində sevdiyi komandanın heyətində qala bildi.

Zidanın gəlişindən sonra da komandada nəzərə çarpacaq dəyişiklik baş vermədi. Təsadüfi deyil ki, "Real Sosyedad"a məğlub olduqdan sonra əsəbi görkəmdə olan Zidan mətbuat konfransında bildirdi ki, geniş surətdə heç nə danışmaq istəmir, sadəcə bu mövsümün tez bitməsini səbirsizliklə gözləyir.



"Real" demək olar ki, tam şəkildə ulduzlardan ibarət komandadır. Ancaq futbol komanda oyunudur. Futbol ulduzları da bir-birini dəstək olmasa, şərait yaratmasa, onların heç biri ayrı-ayrılıqda uğura imza ata bilməz. Təəssüf ki, bu mövsüm kral klubunda həmin isti ab-havanı da görmədik.

Beləliklə, "Real" komandası ilə bağlı şəxsi mülahizələrimi aşağıdakı amillərlə yekunlaşdırmaq istərdim. Kral klubunun bütün oyunçuları müxtəlif yığma komandalarda təmsil olunurlar. Yenicə başa çatmış dünya çempionatından sonra istirahət etməyə elə də vaxt qalmamışdı. Belə bir vəziyyətdə də artıq bütün titullardan doymuş futbolçular yeni mövsümə tələb olunan dərəcədə köklənə bilmədilər. Eyni zamanda burada onların özlərinə həddindən artıq arxayınçılıq və əminlik notlarını da yaddan çıxarmaq olmaz. Bundan başqa nəhəng klubların hamısında müəyyən mərhələlərdə futbolçularda eqoistlik baş qaldırır. Bu baxımdan "Real" da istisnalıq təşkil etmir və belə meyllər kral klubunda da arabir müşahidə olunur. Bəzən futbolçular çox qazananlara da "çəp baxırlar". Əslində bu, bütün məşhur klublar üçün xarakterik olan bir haldır. Mütəxəssislər tez-tez belə fikir səsləndirirlər ki, məşqçi istedadlı gənclərə imkan yaratmalı, onlara fürsət verməlidir. Kral klubunda bu mövsüm gənclərə böyük meydan verilsə də, onlar özlərini elə də doğrulda bilmədilər.

Hər bir halda kral klubu üçün mövsüm artıq arxada qaldı. Fikrimcə, yaxın ki, növbəti mövsüm yenə də əvvəlki illər olduğu kimi möhtəşəm bir "Real" görə biləcəyik. Düşünürəm ki, klubun prezidenti və rəhbərliyi ciddi islahatlar aparmaqla yeni transferlər həyata keçirəcəkdir. Oyunçuların psixoloji vəziyyətinin qaydaya salınması, əhvali-ruhiyyənin yenilənməsi üçün hər bir halda komandada müəyyən dəyişikliklər etmək lazım gələcəkdir. Yalnız belə ciddi tədbirlər görməklə komandanı yenidən uğur zolağına qaytarmaq mümkün olan bilər.

"Atletiko" Madridin çempionluq uğrunda mübarizədə uzun müddət ümidi olaraq qalırdı. Lakin "Barselona" ilə həlledici səfər matçında 0:2 hesablı məğlubiyyət madridlilərin iddiasına son qoydu. Ümumiyyətlə, komandanın bu mövsüm çıxışını məqbul hesab etmək olar. Çempionlar Liqasında "Yuventus" ilə olan qarşılaşmanı isə ən yaddaqalan məqam kimi qeyd etmək yerinə düşər. Madriddə Simeonenin ciddi müzakirələrə, hətta narazılıqlara səbəb olan baş məşqçiyə yaraşmayan hərəkəti İtaliya komandasını cavab matçına sanki döyüşməyə köklədi. Azarkeşlər Turində prinsipial, uzun müddət yaddan çıxmayan çox maraqlı bir oyun izlədilər.

Növbəti dəfə möhtəşəm iz qoyan Ronaldonun vurduğu üç qolla "Yuventus" məğlubiyyətin əvəzini çıxıb mərhələni keçdi. Bu oyunda Ronaldo eyni zamanda Simeonenin Madriddə nümayiş etdirdiyi hərəkəti təkrar göstərməklə baş məşqçiyə "layiq olduğu cavabı" verdi. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, bu məşqçi heç vaxt mənim maraq dairəmdə olmayıb, bu gün də belədir və yəqin ki, olmayacaq. Belə məşqçilər (elə bəzi futbolçular da!) ən azından nədənsə unudurlar ki, futbol azarkeşlər üçün bir daxili dünya məsələsidir. Ona görə də hərəkətlərində, danışıqlarında məsuliyyətli və ehtiyatlı olmalıdırlar. O ki qaldı Ronaldoya. Bir daha bu futbolçunun içində qaynayan və hər an partlayışa hazır olan vulkanı gördük. İstər-istəməz onun qələbə, qol vurmaq eşqi ilə alovlanan gözlərinin parıltısına heyran qalırsan. Təsadüfi deyildir ki, Ronaldo bu mövsüm İtaliya çempionatının ən yaxşı oyunçusu seçildi.

## "Başının üstünü qara buludlar alan komandalar"

"Valensiya" mövsümə uğursuz başlasa da, sonradan Çempionlar Liqasına vəsiqə verən dördüncü yeri tutmağa nail oldu. Hər halda komandanın vəziyyəti ümumi halda təhlil edildikdə, bu nəticəni "yarasalar" üçün uğur kimi qiymətləndirmək olar.

İmkanlarından aşağı səviyyədə çıxış edən "Sevilya" iddialarını ortaya qoya bilmədi. Bu dəfə liderlərlə rəqabətə qoşula bilməyən "Sevilya" hər halda Avropa Liqasına vəsiqə qazandı.

Çempionatın diqqət çəkən komandalarından biri olan "Betis" orta sıralarda yer alsa da, yaxşı təsir bağışlamaqla həm "Barselona"nı, həm də "Real"ı səfər oyunlarında məğlub edə bildi. Komandanın yarımmüdafiəçisi Serxio Kanales özünü hərtərəfli göstərdiyinə görə İspaniya yığmasına dəvət aldı. 28 yaşlı püxtələşmiş bu futbolçu milli komanda üçün də faydalı oyunçu olduğunu sübut edə bildi.

Bu mövsüm La Liqada qalmaq uğrunda mübarizə son tura qədər gərginliyi ilə yadda qaldı. Hələ çempionatın başa çatmasına altı tur qalarkən 6-7 komandanın başının üstünü qara buludlar almışdı. Çempionatın bitməsinə iki tur qalmış Sequndaya yollanan iki komanda müəyyən edildi. Üçüncü komanda son turdan sonra bilindi. Təəssüf ki, bu komanda çempionata çox yaxşı başlayan, uzun müddət ilk onluqda bərqərar olmuş, Stuani kimi futbolçuya malik olan, amma sonradan getgedə gözlənilmədən ardıcıl məğlubiyyətlər seriyasına məruz qalan "Jirona" oldu.

"Barselona" ilə bağlı fikirlərimi, mülahizələrimi ayrıca olaraq oxucuların diqqətinə çatdırmağı daha məqsədə müvafiq hesab edirəm.

Beləliklə, düşünürəm ki, bu mövsüm də İspaniya çempionatı İngiltərə Premyer Liqasından sonra bütün meyarlara və parametrlərə görə digər Avropa ölkələrini qabaqlaya bildi.

## "Futbol adlanan möcüzə stadionlarda baş verir"

Belə təsəvvür yaranırdı ki, Almaniya çempionatında ilk oyunlarını stabil keçirməyən "Bavariya" bu mövsüm çempionluqdan kənarda qalacaq. Liderliyi ələ keçirən "Borusiya" Dortmund bu pilləni uzun müddət əldən vermədi. Lakin tədricən münxenlilər oyunlarında dönüş yaratdılar və "Borusiya" ilə xal fərqini aradan qaldırmağa müvəffəq oldular. Birincilik uğrunda gərgin mübarizədə son tura qədər hər iki komandanın çempion olmaq şansı qalırdı. Yalnız axırıncı turda "Bavariya" çempionluğu təmin edə bildi.

Bundesliqada, həmçinin "Leyptsiq", "Bayer", "Borusiya" Münhenqladbax, "Ayntraxt" komandaları da yaxşı təsir bağışladılar.

Xüsusən elə də güclü heyətə malik olmayan "Ayntraxt"ın Avropa Liqasının "Çelsi" ilə yarımfinal qarşılamasında İngiltərə nəhəngi ilə başabaş mübarizə aparan bir komandanın mərhələ adlamaq istəyi, iradəsi, qələbəyə köklənməsi azarkeşləri, tamaşaçıları heyran etdi. Hələlik heç bir futbol ulduzu olmayan (Luka Joviç, Filip Kostiç futbol ulduzları kimi yetişməkdədir- M.İ.) Frankfurt komandası yalnız penaltilər seriyasında rəqibə məğlub oldu. Hərçənd ki, həmin anlarda mən istəyirdim ki, mübariz ruhlu "Ayntraxt" finala çıxıb Bakıya gəlsin. Amma hər halda göz yaşlarını saxlaya bilməyən futbolçular, alman azarkeşləri yadda qaldı...



Bununla belə, ölkənin ən güclüsü və Çempionlar Liqasına düşmək uğrunda İngiltərə Premyer Liqasında olan mübarizə, rəqabət, gərginlik Almaniya Bundesliqasında bu mövsüm də müşahidə edilmədi.

Lakin həmişə olduğu kimi yenə də Bundesliqanın özünəməxsus fərqli xüsusiyyətlərini gördük. Əvvəla, Almaniyada komandanın hansı sırada olmasından və necə oyun göstərməsindən asılı olmayaraq birinci turdan başlayaraq axırıncı tura qədər stabil qaydada stadionlar dolur. İkincisi, tamaşaçı kontingenti əsil azarkeşlərdən ibarət olmaqla çox rəngarəngdir. Yəni, məsələn, Barselonada, Madriddə, Londonda, Parisdə, Monakoda, Romada qonaqlar, turistlər də stadionlara gedirlər. Və onlar sanki teatra, yaxud hər hansı bir idman yarışına baxmağa gəlmiş kimi də təsir bağışlaya bilərlər. Almaniyada isə mənzərə, azarkeşlərin stadionlara axışması bir qədər başqadır. Futbol adlanan möcüzə stadionlarda baş verir. Almaniya stadionlarında çılğın azarkeşlərin səsindən sanki yer-göy yerindən oynayır, tribunalar az qala zəlzələdəki kimi titrəyir. Bütün oyunboyu bayraqlar dayanmadan dalğalanır, qulaqbatırıcı səs-küy ətrafı bürüyür. Azarkeşlər sevincdən yerə-göyə sığmır. Elə anlar da olur ki, onlar sanki ağıllarını itirmiş kimi görünürlər. Oyun başlayandan bitənə qədər ayaqüstə dayanırlar. Eyni zamanda Almaniyada azarkeşlər arasında münasibətlər və dostluq duyğuları daha möhkəmdir.

"Bavariya" həmçinin çempionluq bayramını təntənəli keçirməsi ilə də yadda qaldı. Axırıncı matçda hərəyə bir qol vuran Riberi və Robben alman klubunda son oyunlarını keçirməklə Bundesliqa ilə vidalaşdılar. Özü haqqında daim yüksək fikirdə olan, həmişə iddialı açıqlamaları ilə seçilən Riberini azarkeşlər həm də



əsəbi, davakar futbolçu kimi də tanıyırlar. Robbenin də dünyanın ən yaxşı yarımmüdafiəçilərindən biri olması futbolsevərlər tərəfindən birmənalı qəbul edilir. Mənim də futbol piramidamda bəyənilən futbolçular kimi hər ikisi yer alıblar. Xüsusən, Riberinin ağlaya-ağlaya stadiondan mikrofonla birbaşa azarkeşlərlə vidalaşması kövrək bir mənzərə yaratdı. Futbolçuların iri qablarda bir-birinin başına pivə tökmələri və komandanın rəhbərliyinin fəxri tribunada şampan şərabı içmələri səhnəsi də maraqlı idi.

*(ardı var)*

# Dünya idmanı



## Barak Obama matça baxdı

ABŞ-ın sabiq prezidenti Barak Obama NBA çərçivəsində “Toronto” və “Qolden Steyt” komandalarının pley-off mərhələsindən final görüşünü izləyib.

ABŞ-ın 44-cü prezidenti tribunada liqanın nüfuzlu şəxslərindən Adam Silverlə birlikdə əyləşib. Azarkeşlər və oyunçular Barak Obamanı hərarətlə qarşılayıblar.

## “Liverpul”dan altıncı çempionluq

İyunun 1-də UEFA Çempionlar Liqasının 2018-2019-cu il mövsümünün final görüşü keçirilib.

Madriddəki “Vanda Metropolitano” stadionunda iki ingilis klubu - “Tottenhem” və “Liverpul” qarşılaşıblar.

Matçın 2-ci dəqiqəsində “Liverpul”un futbolçusu Sadio Manenin ötürməsindən sonra top “Tottenhem”in cərimə meydançasında müdafiəçi Musa Sissokonun əlinə dəyib. Hakim “Tottenhem”in qapısına 11 metrlik cərimə zərbəsi təyin edib. Zərbəni dəqiq yerinə yetirən Məhəmməd Salah hesabı açıb - 1:0. Birinci hissənin qalan dəqiqələrində hesab dəyişməyib və “Liverpul” fasiləyə minimal hesablı üstünlüklə yollanıb.

Qarşılaşmanın 87-ci dəqiqəsində Divok Origi “Liverpul”un ikinci topunu rəqib qapısından keçirərək görüşdə son nöqtəni qoyub - 2:0.

Beləliklə, UEFA Çempionlar Liqasının 2018-2019-cu il mövsümünün final qarşılaşmasında “Tottenhem”i 2:0 hesabı ilə məğlub edən “Liverpul” tarixində altıncı dəfə qitənin ən nüfuzlu klub turnirinin qalibi olub. Final matçından sonra qaliblər mükafatlandırılıb.

Xatırladaq ki, “Liverpul” 1977-ci, 1978-ci, 1981-ci, 1984-cü və 2005-ci illərdə UEFA Çempionlar Liqasının qalibi adını qazanıb. Komanda ümumilikdə üç dəfə bu turnirin finalında məğlub olub. “Liverpul” ötən mövsüm turnirin finalında “Real Madrid”ə 1:3 hesabı ilə uduzub. “Mersisaydlılar” sonuncu çempionluğu 2005-ci ildə İstanbulda “Milan”ı əsas vaxtı 3:3 hesabı ilə başa çatan qarşılaşmada 11 metrlik cərimə zərbələri seriyasında məğlub edərək qazanıblar.

## “Bu, ədalətsizlikdir”

Konki idmanı üzrə Olimpiya çempionu və Rusiyanın millət vəkili Svetlana Jurova ölkəsinin Tokio-2020 Yay Olimpiya Oyunlarından uzaqlaşdırılması məsələsinə münasibət bildirib.

Olimpiya çempionu deyib: “Mənim inamım belədir ki, idman növünü Olimpiya proqramından çıxarmaq olar, amma ölkəni yox. Bu, ədalətsizlikdir.

İstənilən ölkədə antidopinq qaydalarını pozurlar. Bir federasiyanın problemini bütün ölkənin və onun idmançılarının üstünə yıxmaq düzgün deyil. İnanıram ki, Beynəlxalq Olimpiya Komitəsi bu məsələ ilə bağlı düzgün qərar verəcək”.

Qeyd edək ki, bir müddət əvvəl Böyük Britaniyanın “The Sunday Times” nəşri Rusiyanın Tokio-2020 Olimpiadasından kənarlaşdırılacağı barədə xəbər yayıb.



## Olimpiya çempionu idmanla vidalaşdı

Şort-trek üzrə Olimpiya çempionu Samuel Jirar karyerasını başa vurub.

22 yaşlı kanadalı atlet Pxençxan-2018 Olimpiadasında 1000 metr məsafəyə yarışlarda qızıl medal alıb. Həmin olimpiadada bürünc medalı isə komanda yarışlarında əldə edib. Onun hesabında dünya çempionatının 5 medalı da var.



“Mən idmandan gedirəm və qazandığım uğurlarla fəxr edirəm. İştirak etdiyim ilk olimpiadamda qızıl medala layiq görülmüşəm və bu, qürurvericidir”, - deyə Olimpiya çempionu bildirib.



## Coşuanı məğlub edən tapıldı

“Dayanmadan “snikers” yeyir və 12 yaşından özündən böyük kişiləri döyür. 19 yaşında çəkisi 135 kq olub”.

Bu sözlər bugünlərdə dünya çempionu Entoni Coşuanı görüşün 7-ci raundunda texniki nokautla məğlub edərək 4 çəki üzrə dünya çempionu adını qazanan Endi Ruisə aiddir.

Endi uşaqlıqdan boks və beysbolu çox sevib. Ona məşqçilik edən atası oğlunun 6 yaşı olanda yalnız boksa yönəldib. 3 bacının bir qardaşı olan Endi həmişə çempion olacağını və bacılarını müdafiə edəcəyini deyirmiş: “Ata, mən böyüyəndə dünyada ən güclü çempion olacağam və heç kəsə mənim yaxınlarımı incitməsinə imkan verməyəcəyəm”.

Məlumat üçün bildirək ki, dünya boks tarixində belə hal (apset), yəni minimal şansı olan döyüşçünün favorit idmançıya qalib gəlməsi, cəmi 3-4 dəfə olub. Məsələn, 1978-ci ildə Leon Spinks Məhəmməd Əliyə, 1990-cı ildə Baster Duqlas Mayk Taysona və 2001-ci ildə Haşim Rahman Lennoks Lyuisə belə qalib gəlib.

## Federasiyada rəhbərlik dəyişdi



İyunun 1-də Türkiyə Futbol Federasiyasının (TFF) prezidenti vəzifəsinə seçkilər keçirilib.

Seçkilərdə vahid namizəd olan Nihad Özdemir 183 nəfərin iştirakı ilə keçirilən səsvermədə 179 səs toplayıb.

TFF-in yeni prezidentinin formalaşdırdığı 14 nəfərdən ibarət idarə heyətinin üzvləri arasında tanınmış futbolçu Həmid Altıntop da var.

Türkiyə Futbol Federasiyasının sabiq prezidenti İldırım Dəmirören fevralın 28-də vəzifəsindən istefa verib.

olimpnews.az - sizin saytınız




## Reyesin ölüm səbəbi bilindi



İspaniya millisinin sabiq futbolçusu Xose Antonio Reyesin avtomobil qəzasında vəfat etməsinin təfərrüatları bəlli olub.

35 yaşlı sabiq futbolçu Almendralex bölgəsindən Utrerə gedən yolda “Mercedes” markalı maşının idarə etməsini itirib. Buna avtomobilin sürətinin 237 km/saat olan zaman təkərlərdən birinin partlaması səbəb olub. Maşın çox yüksək sürətdə olduğu üçün magistraldan çıxaraq aşıb və partlayıb. Məşhur futbolçunun əmisi oğlu da qəzada vəfat edib.

“Sevilya”nın yetirməsi olan Reyes “Arsenal”, “Real”, “Atletiko”, “Benfika”, “Espanyol” kimi klublarda çıxış edib. O, yanvar ayında İspaniya Sequndasında çıxış edən “Ekstremadura” ilə müqavilə imzalamışdı.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19